# MAHİRƏ NAĞIQIZI: ŞƏXSİYYƏT VƏ İSTEDAD

Çağdaş Azərbaycan poeziyasının istedadlı simalarından olan Mahirə Nağıqızının zəngin və çoxşaxəli yaradıcılığı fundamental mənzərəsi ilə sistemli yanaşmaları zəruri edir. Bütün varlığı, ruhu ilə milli düşüncəyə, vətən sevgisinə, etnik sistemin yüksək təfəkkür intelleksiyasına dayanan yaradıcılığı təkcə poeziya ilə də məhdudlaşmır. Digər xətdə filologiya elmləri doktoru, professor kimi ciddi və aktual problemlərin çözümünə hesablanan möhtəşəm araşdırmaları dayanır. “Ana kəndim Xalxalım”, “Bayatılar və 3 şeir”, “Bayatılar”, “Aşıq vəel şairlərinin fonopoetikası”, “Alim təfəkkürünün itiliyi”, “Dərdi dərin Həsən Mirzə”, “Ədəbiyyatşünaslığa xidmət əzmi ilə”, “XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası” və s. kitabları tanınmış şair və alimin haqqında dolğun təsəvvür yaratmaq üçün müfəssəl bilgi verir. Burada M.Nağıqızının şair və tədqiqatçı obrazı bir bütöv olaraq boy göstərir.

Klassiklər vurğulayırlar ki, xalqın ruhu onun dilidir, dili isə onun ruhudur. Zəngin folklor mədəniyyətinə bağlanan və qaynağını bir genetik kod olaraq varlığında (eləcə də fəaliyyətində) daşıyan istedadlı şair, alim milli-mənəvi dəyərlərin təbliğ və təlqinini əsərlərində də bir bütöv olaraq əsas götürür. Xalq şeiri üslubunda yazdığı bayatı, gəraylı, qoşmaları bunun bariz göstəricisidir. Onun qaynağı isə böyüyüb boya-başa çatdığı ailədən, dünyaya göz açdığı müqəddəs torpaqdan, elobanın zəngin yaşam fəlsəfəsindən, ağbirçəklərin, ağsaqqalların, ustadların nağıl, əfsanə, rəvayət, dastan söyləmələrindən irəli gəlir. Bütün bunları təfsilatı ilə izlədikdə düşünürsən ki, Mahirə xanıma bunlar həm də bir Tanrı payı olaraq verilmişdir.

Mahirə Nağıqızı zəngin və keşməkeşli bir ömür yolu keçmiş ziyalılarımızdandır. O, 1960-cı ildə Babək rayonunun Süst kəndində dünyaya göz açmışdır. Türkün qədim mədəniyyət mərkəzlərindən olan bu müqəddəs torpaqda elat həyat tərzindən gələnlər, bayatı, layla, nəğmə həzinliyindən boy göstərən etnik dəyərlər onun ruhuna su kimi çilənmiş və böyük dəyərlərə köklənməsi üçün başlanğıc olmuşdur. Sözə, sənətə həvəs də elə genetik kod olaraq ailədən, dünyaya göz açdığı torpaqdan qanına işləmişdir. Bütün bunlar onun böyük ədəbiyyata gəlişinin əsasında dayanmışdır. Orta məktəbi bitirib indi professor olduğu universitetə gəlişinin əsasında da bu mənəviyyat və zəngin ədəbiyyat sevgisi durmuşdur. Azərbaycan ali təhsilinin flaqmanı olan Azərbaycan Dövlət Pedaqoji Universitetini (keçmiş V.İ.-Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu) bitirib orta məktəb müəllimi kimi fəaliyyətində də azərbaycançılıq məfkurəsini bir prinsip olaraq əsas götürmüşdür. Xalqın balalarına təkcə ədəbiyyatımızı deyil, həm də necə oturub-durmağı, vətən, torpaq sevgisini öyrətmişdir. Özü isə bütün bu işlərdə nümunə olmuşdur.

Sıravi müəllimlikdən ali təhsil ocağında professor elmi dərəcəsinədək yüksələn Mahirə Nağıqızı 2012-ci ilin yanvarında “Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri“ mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Elmin aktual problemlərinin açımına olan həvəs onu daha böyük araşdırlmalara yönləndirmişdir. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda “XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)” mövzusunda tədqiqat işini (2017-ci il may ayının 2-də) müdafiə etmişdir. Müxtəlif vaxtlarda “Respublikanın qabaqcıl təhsil işçisi” döş nişanı, “İlin nümunəvi müəllimi - dərəcəli diplom”; “Qabaqcıl təhsil işçisi”; “Qızıl qələm”, “Media mükafatı laureatı”; “İlin alimi” kimi fəxri diplom və adlarla mükafatlandırılmışdır. Görkəmli ictimai xadim, professor H.Mirzə “Böyük enerjiyə malik insan” adlı məqaləsində yazır: “Eşidəndə ki, Mahirə Nağı qızı Hüseynovanın 50 yaşı tamam olur, onun böyüyüb, boya-başa, ərsəyə çatdığı ailə mühiti və onda müşahidə etdiyim anlar xəyalımda canlandı. Xəyal məni keçən əsrin 80-ci illərinin əvvəllərinə çəkdi. O illərdə Mahirə tələbə idi”.



Artıq Mahirə Nağıqızı ədəbiyyatda və elmdə öz sözünü demiş və bir-birindən maraqlı əsərləri ilə ədəbi-mədəni prosesə öz möhürünü vurmuş simalardandır. Bir-birindən orijinal əsərləri, xalq ruhuna köklənən bayatı və qoşmaları dil zənginliyi, ifadə fenomenliyi, misranın fikir tutumu baxımından mükəmməldi. Q.Məşədiyev, Q.Bayramov, M.Allahmanlı, B.Qurbanov, İ.Kazımov, B.Həsənli, Ş.Albalıyev, Q.İdrisov, M.Xalıqov, Ç.Kazımlı, R.Qurban, Ş.Səlimbəyli, F.Ləman, Ə.-Xələfli və s. kimi tanınmış ziyalılar M.Nağıqızının yaradıcılığını müxtəlif kontekstlərdə təhlil etmiş, məzmun qatlarında özünə yer almış problemləri açmağa çalışmışlar. Tanınmış tədqiqatçı Ş.Səlimbəyli ədibin “Mənim anam”, “Su at dalımca, ana” şeir kitablarını təhlil edərək vurğulayır ki, “ədəbiyyatımızda tarix boyu ana, vətən kimi müqəddəs mövzularda bir-birindən gözəl, dəyərli əsərlər - poeziya, nəsr və dramaturgiya nümunələri yaranıb, yaranmaqdadır. Lakin hələ indiyə qədər heç bir dramaturq, nasir, hətta publisist belə bütün yaradıcılığını bu mövzuya həsr etməmişdir. Bu təşəbbüsdə birincilik Mahirə Nağıqızının bəxtinə düşmüşdür”. Doğrudan da, onun yaradıcılığının ana axarını ana, vətən mövzusu təşkil edir.

Ruhun qəlbimdə mənim,  
Nurun əynimdə mənim.  
Ana, kaş çəkilməyə  
Əlin çiynimdən mənim.

Və yaxud da bir bağqa nümunəyə diqqət yetirək:

Anam gəl, ay anam gəl,  
Yox kimsədən aman, gəl.  
Bir kimsənə tapmadım,  
Sənə sığınaram, gəl.

Mətn informasiyası, sözün məna yaddaşı, kanonik sistemin məzmun yaradıcı funksiyası bütün parametrləri ilə bayatı örnəyinin sənət abidəsi kimi alınmasının uğurluluğunu şərtləndirir. Demək olar, bütün şairlərimiz ən yaxşı şeirlərini ana, vətən haqqında yazmışlar. Bu mövzuda nələr deməmişlər. Mahirə xanım da həmin sırada olan ədiblərimizdəndir.

Mahirə Nağıqızı özü də anadır və təkcə ailədə deyil, bütünlükdə bu gün çalığdığı Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin tələbələrinə bir müəllim, şair, alim, ana sayğısı ilə yanaşır. Kafedra müdirliyindən dekan,prorektor vəzifəinə qədər yüksələn Mahirə Hüseynova hər zaman tələbələrin əhatəsindədir.Onların qayğısına qalması, problemləri ilə maraqlanması baxımından bir örnəkdir. Bu baxımdan kollektivin sevimlisinə çevrilmişdir. Biz yaradıcılıqda şəxsiyyət məsələsindən danışırıq və Mahirə Nağıqızının şəxsiyyəti onun çoxyönlü fəaliyyətində, şeirlərində, elmi araşdırmalarında, rəhbərlik etdiyi kollektivə münasibətdə bütün tərəfləri ilə aydınlıqla görünür.

Çağdaş ədəbiyyatımızın parlaq istedad sahiblərindən olan M.Nağıqızının elmi məqalələri,dərs vəsaitləri, monoqrafiyaları,publisistik əsərləri problem aktuallığı ilə daha çox nəzərdiqqəti cəlb edir. “Ulu Öndərimizə məhəbbət ruhunda”, “Ulu Öndərimizin natiqlik məharəti”, “Həsən Mirzəyevin yaradıcılığında onomastik vahidlərin tədqiqi məsələləri”, “H.Mirzənin şeirlərində Dərələyəz toponimləri”, “Xalxal toponimi haqqında”, “Elimizin və elmimizin ağsaqqalı”, “Azərbaycan dilində omonim şəkilçilər və onların tədrisi” və s. bütün parametrləri ilə mahiyyətin nəzəri kontekstdə açımına bağlanır. Folklorşünas M.Allahmanlı məhz çox doğru olaraq yazılarında qürur hissi ilə vurğulayır ki, “bu Mahirə Nağıqızının imzasıdır”. Belə bir deyimin isə məzmunu, funksional çəkisi çox dərinlərə bağlanır.

Mahirə Nağıqızının bədii əsərlərinin oxucu auditoriyası çox genişdir.-Seirləri istər gənc,istərsə də yaşlı nəsil tərəfindən sevilə-sevilə oxunur. Əsərlərinin mövzu axarını Vətən, Ana, müqəddəs torpaq,həsrət,sevgi,arzu,qələbə,təbiət və s. müəyyənləşdirir.

Xoş avazlı,  
Sözlü, sazlı  
Bir dəryadır  
Anam Nazlı!

Mənim dünyamın anası!Anamın dünyası,mənim dünyam və s. kimi epitetlər ədibin duyğular selini, həyat fəlsəfəsinin məzmununu və hansı ideallara yükləndiyini aydınlaşdırır.

Bu vətən deyilən torpaq deyil ki,  
Anamın dizinin yanı vətəndir.  
Başımı qoymağa bir sinə varsa,  
Ruhuma beşiksə,tanı vətəndir.

Mahirə Nağıqızı bu tip ümumiləşdirmələri ilə bütün analara olan sevginin möhürün vurub. Ədibin “Anam Nazlı” şeiri haqqında Banqladeşdə nəşr olunan “Dailyobserver” həftəlik qəzetində böyük bir məqalə cap edilmişdir. Onu da əlavə edək ki, istedadlı ədibimizin əsərləri xarici poeziya antologiyalarında da özünə yer almışdır. Albaniya “ATUNİS GALAXY POETRY” antologiyasında çoxlu sayda şeirləri yer almışdır.Bu şeirlərin ingilis dilinə tərcüməsində filologiya üzrə fəlsəfə doktoru Məsmə İsmayılovanın xüsusi rolu vardır. Yüksək peşəkarlıqla tərcümə olunmuş poetik örnəklər xarici ölkə oxucuları arasında da xüsusi marağa səbəb olmuşdur. ABŞ-ın Texas Ştatında dünya şairlərinin birliyi yaranmış və Mahirə Nağıqızı orada Azərbaycanı ləyaqətlə təmsil edir.

“Ana”, “Vətən” adı Mahirə Nağıqızı üçün ən ülvi,ən ali,ən müqəddəs məfhumdur. O, Vətən deyəndə doğma Ana,Ana deyəndə müqəddəs Vətəni düşünür. Ürəyi ana məhəbbəti,Vətən sevgisi ilə döyünən ədibin yaradıcılığında milli-mənəvi dəyərlərin təbliğ və təlqini funksional səciyyəsi ilə diqqət önünə gəlir.

Yerə qan tökdülər,ruh göyərtdilər.  
Tarixi yazdılar Vətən daşında.  
Min illik xalqlara dərs öyrətdilər,  
Bu ərən oğullar cavan yaşında.

Dərdimi,ana,deyimmi?  
Kimin var,sana deyimmi?  
Sənə də deyə bilmirəm,  
Açım Qurana deyimmi?

Lazım olanda çox sərt,Burla xatun,Həcər timsallı mübariz ruhlu Azərbaycan xanımına xas keyfiyyətlərə malik olan Mahirə Nağıqızının məhəbbətlə döyünən ürəyi ideallara köklənir,sevgisi kükrüyən çayın suları kimi damarlarında axır.

Eşq atəşi dəryasının ləpəsiyəm,  
Bu səhranın dərəsiyəm,təpəsiyəm,  
Dayanmıram,dolanıram səhralarda  
Mən eşq adlı, bax, o dağın təpəsindəyəm.

Vətəninin,onun təbiətinin vurğunu olan Mahirə xanım bu gözəllikləri “Be-ləmi, dağlar,beləmi”,”Payız yarpağı”, “Yaz küləyi”, “Qayada bitən çiçək”, “Bə-növşə” və s. kimi şeirlərində bütün təfsilatı ilə təqdim edir. Bütün bunlarla yanaşı, onun poetik örnəklərinin alt qatında bəzən bir nisqil,təklik,ayrılıq, həsrət boy göstərir. Bunun isə çox dərinliklərə gedib çıxacaq qatları vardır. Bütün bunlar görkəmli alim, tanınmış şair M.Nağıqızının zəngin yaradıcılığının ümumi məzmun qatlarında dayanan problemləri əhatələməklə, həm də sistemli araşdırmalara yol açdığını diqqət önünə gətirir.



***Simuzər Əliyeva,***  
***Azərbaycan Dövlət Pedaqoji Universiteti,***  
***filologiya üzrə fəlsəfə doktoru, baş müəllim.***